Xalq qəzeti.- 2019.- 20 dekabr.- S.10.



# Azərbaycan dünyanın ən güclü ölkələri sırasında layiqli yer tutur

***Azərbaycan son illərdə uğurla inkişaf edir. Qeydə alınan iqtisadi artım, genişmiqyaslı sosial islahatlar, dövlət qurumlarını, icra strukturlarını əhatə edən yeniləşmələr, kadr islahatları və s. Azərbaycanı bir sıra parametrlər üzrə aparıcı dünya dövlətləri ilə bir sıraya qoyur. Bunu istər ölkə daxilində, istərsə də xarici təşkilatlar səviyyəsində etiraf edirlər. Prezident İlham Əliyev öz nitqlərində dəfələrlə vurğulayıb ki, Azərbaycanın uğurları əksər beynəlxalq təşkilatların, dünyanın aparıcı maliyyə qurumlarının hesabatlarında əksini tapıb.***

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olunub, xalq və dövlət üçün taleyüklü layihələr həyata keçirilib. Azərbaycanın iqtisadi potensialı güclənib, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Odur ki, Azərbaycan iqtisadi inkişaf sürətinə görə son illərdə dünyanın qabaqcıl dövlətləri sırasında şərəflə addımlayır. Həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan regionun lider dövlətinə, söz sahibinə çevrilib, beynəlxalq birlikdəki yerimiz daha da möhkəmlənib. Bakıda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər gənc Azərbaycan dövlətinin dünyada artan nüfuzunu təsdiq edən mühüm faktorlardır. Azərbaycan müxtəlif xarakterli – siyasi, iqtisadi, idman, səhiyyə və sair tədbirlərin keçirildiyi məkana çevrilib. Ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən biri olmasını artıq bütün dünya qəbul edir.

Beynəlxalq hesabatlarda ölkəmizin adını siyahıların yuxarı hissəsində görəndə, əlbəttə, vətəndaşlarımız qürur hissi keçirir, sevinirlər ki, Vətənimiz müstəqilliyinin ilk illərindəki böhran keçirən ölkədən güclü və nüfuzlu dünya dövlətləri ilə bir sırada dayanmaq iqtidarında olan dövlət səviyyəsinə yüksələ bilib. Bu, hər bir Azərbaycan insanın qəlbini qürur hissi ilə doldurur.

Bu yaxınlarda ABŞ-ın "U.S.News & World Report" jurnalı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını açıqlayıb. Reytinq ABŞ-ın ən nüfuzlu siyasi nəşrlərinin saytlarında dərc edilib. Siyahı Pensilvaniya Universitetinin "BAV Group & Wharton School" qrupunun analitikləri tərəfindən tərtib edilib. Belə məlum olur ki, reytinq siyahısı tərtib edilərkən ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlüyü və iştirakı da daxil olmaqla bir sıra amillər nəzərə alınıb. Bu siyahıda Azərbaycan 80 ölkə arasında 45-ci yerdə qərarlaşıb. Ölkəmiz bu reytinqi 2019-cu ildə əldə etdiyi uğurlara görə qazanıb və hətta bir neçə Avropa ölkəsini – Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoyub.

Əlbəttə, Azərbaycanın daha bir reytinqdə yüksək nəticəyə nail olması təsadüfi deyil. Bu nəticələr ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl, məqsədyönlü işlər görülməsi, islahatlar aparılması, müxtəlif dövlət proqramlarının qəbul və icra edilməsi sayəsində qazanılıb. Nəticədə Azərbaycan dünya miqyasında, həqiqətən, müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkə kimi ad çıxara bilib. Bu gün Azərbaycan dünyada heç kimdən asılı deyil. Prezident İlham Əliyev də çıxışlarından birində demişdi ki, bundan sonra elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq: "Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar, yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir. Əhalinin mütləq əksəriyyəti bizə alternativ görmür…"

Bax, buna görədir ki, dünyada Azərbaycana rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr Azərbaycanla əlaqələr qurmağa, əməkdaşlıq etməyə, qarşılıqlı faydalar götürməyə can atırlar. Azərbaycan özü də belə əməkdaşlıqda maraqlıdır. Azərbaycan böyük maliyyə tutumlu neft-qaz, nəqliyyat layihələrini icra edib. Təbii ki, bu layihələrdə xeyli sayda dövlət iştirak edib. Bu əməkdaşlıq Azərbaycana təkcə iqtisadi deyil, həm də siyasi dividendlər qazandırıb. Nəticədə dünyada dostlarımızın sayı artıb. Səkkiz il bundan əvvəl BMT Təhlükəsizlik Şurasında 155 ölkə Azərbaycana səs verib və ölkəmiz TŞ-nin qeyri-daimi üzvü seçilib. Bu, cəmi 20 il əvvəl müstəqillik qazanmış bir ölkə üçün böyük etimad deyilmi?!

Bu yaxınlarda Azərbaycan 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladı. BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatının Bakıda Zirvə görüşü keçirildi. Qarşıdakı üç il ərzində bu təşkilata sədrlik edəcəyik. Biz indi dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik. Gündəliyi biz formalaşdıracağıq. Prezident İlham Əliyev Zirvə görüşündə səsvermə prosesi ilə bağlı bir detala toxunaraq deyib: "Bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri – 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir".

Təbii ki, Azərbaycanın xarici siyasətlə bağlı uğurları bunlarla məhdudlaşmır. Bu ilin oktyabr-noyabr aylarında dövlət başçısı İlham Əliyev bir sıra beynəlxalq tədbirlərdə ölkəmizi layiqincə təmsil edib, Azərbaycanın nüfuzunu qaldırıb. Prezident Putinin dəvəti ilə "Valday" Diskussiya Klubuna cəmi 3 dövlət başçısı dəvət olunmuşdu ki, onlardan biri Azərbaycanın dövlət başçısı idi. Bu, Rusiya və onun Prezidentinin Azərbaycana nə qədər böyük önəm verdiyini və hörmət bəslədiyini göstərir. Həmin tədbirdə Prezident İlham Əliyev bütün dünyaya bəyan etdi: "Qarabağ Azərbaycandır və nida işarəsi". Bununla dünyaya bir daha dünyanın nəzərinə çatdırılıb ki, Qarabağ Azərbaycan torpağıdır.

"Valday"dan bir neçə gün sonra Bişkekdə MDB Dövlət Başçılarının Zirvə görüşü keçirilib və Azərbaycan Prezidenti burada da özünün siyasi liderliyini nümayiş etdirərək, Böyük Vətən müharibəsində qələbənin 75 illiyi ərəfəsində MDB məkanında faşistlərə abidələr ucaldılması məsələsinə münasibətini bildirib. Qeyd edib ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir. Onu əvvəlki hakimiyyət ucaldıb. İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni yusun Ermənistanın üzündən.

Oktyabrda Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb. Noyabrda Bakıda Dünya dini liderlərinin II Zirvə görüşü keçirilib, 70 ölkənin dini liderləri Bakıya gəliblər. Azərbaycan Prezidenti çıxışında dedi ki, dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Çünki müxtəlif dinlərin liderləri iclaslarda bir-birinin yanında oturub, bir-birini dinləyib və bir-biri ilə salamlaşıblar. Azərbaycan bunu istəyir, bu siyasəti yürüdür. Bu siyasət yeganə düzgün siyasətdir.

Əminik ki, Azərbaycan özünün sülhsevər, tolerant və multikultural siyasəti ilə gələcəkdə reytinq siyahılarının daha yüksək pillələrində qərarlaşacaq.

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**